# "Azərbaycanın öz din siyasəti, dini mədəniyyəti, adət-ənənəsi var"

## Musa Quliyev: "Hər məzhəbin daşıyıcısı özündən bir bayraq düzəltsə, bu, ayrı-seçkiliyə, özbaşınalığa, hətta qarşıdurmaya gətirib çıxara bilər"

**Dekabrın 4-də Milli Məclis "Dini ekstremizmə qarşı mübarizə haqqında" qanun layihəsini qəbul edib. Bundan bir gün sonra isə Azərbaycan Prezidenti İlham Əliyev sözügedən qanunun tətbiqi barədə Fərman imzalayıb. Bununla bərabər, "Dini etiqad azadlığı haqqında" qanuna da dəyişikliklər edilib. Artıq bundan sonra, İslam dininə aid ayin və mərasimlərin aparılması yalnız Azərbaycan vətəndaşları tərəfindən həyata keçiriləcək.**



Qanunla xaricdə dini təhsil almış Azərbaycan vətəndaşlarına İslam dininə aid ayin və mərasimləri aparmaq da qadağan edilib. Eyni zamanda, ibadətgahlardan kənarda, ictimai yerlərdə dini şüarların və digər dini atributların nümayiş etdirilməsi də yasaq olunub. Qanunun tələbinə görə, dini bayraqlar yalnız ibadətgahların, dini mərkəz və idarələrin qapalı yerlərində yerləşdirilə bilər. "Dini ekstremizmə qarşı mübarizə haqqında" yeni qanun, "Dini etiqad azadlığı haqqında" qanuna dəyişiklik edilməsinin səbəbi, həmçinin digər məsələlərlə bağlı "Kaspi"nin suallarını millət vəkili Musa Quliyev cavablandırır.

**- Musa müəllim, "Dini ekstremizmə qarşı mübarizə haqqında" qanunla bağlı cəmiyyətdə müxtəlif fikirlər var. Bəzən iddia edirlər ki, yeni qanunun yaranmasına zərurət məhz Nardaran hadisələrindən sonra ortaya çıxıb. Qanunverici orqanda təmsil olunan şəxs kimi bu barədə Sizin fikriniz nədən ibarətdir?**

- Bu məsələni yalnız Nardaranla əlaqələndirmək doğru deyil. Milli Məclisin plenar iclasından öncə bu barədə komitə iclasında müzakirələr aparılıb, millət vəkilləri qanun layihəsi barədə fikirlərini bildirib, təkliflərini səsləndiriblər. Eyni ilə parlamentin iclasında da deputatlar qanun layihəsi barədə düşüncələrini dilə gətiriblər. Bu isə qısa bir zaman kəsiyi deyil. Bundan başqa, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı da mediaya açıqlamasında bildirib ki, yeni qanunu Nardaranla hadisəsi ilə əlaqələndirmək düzgün deyil. Amma təbii ki, Nardaranda baş verən hadisələr bu qanunun qəbulunu bir qədər tezləşdirdi. Ancaq yenə əvvəlki fikrimə qayıdaraq bildirirəm ki, bu məsələ gündəmdə idi. Çünki bütün dünyanı terrorizm bürüməkdədir. Bu terrorun, separatizmin bir tərəfinin dinlə əlaqələndirilməsi də günümüzün reallığıdır. Biz bundan təəssüf hiss keçiririk. Bəzi qruplar din pərdəsinə bürünərək, ölkədəki dini etiqad azadlığından sui-istifadə edərək, müxtəlif təxribatlar törətməkdə, siyasi məqsədlərini reallaşdırmaqda maraqlıdırlar. Azərbaycan da müstəqilliyin ilk illərində erməni terrorundan, separatizmdən əziyyət çəkib. Müasir dövrdə belə bir terror təhlükəsi din pərdəsinə bürünmüş müəyyən qruplardan, xarici dairələrin təsiri altına düşmüş hansısa şəxslərdən gələ bilər. Ona görə də yeni qanunun ortaya çıxması zərurəti yaranmışdı. Acınacaqlı hal olsa da faktdır ki, bəzi qüvvələr Azərbaycanda din pərdəsi altında fəaliyyət göstərərək, bir sıra adamları dini təsir altına salaraq, onların cihad adı ilə Suriya kimi ölkələrə getməsinə səbəb olmaqdadırlar. Düzdür, hüquq-mühafizə orqanları tərəfindən bu günə qədər belə halların qarşısı alınıb, xaricdə müxtəlif terror təşkilatlarına qoşularaq sonradan Azərbaycana qayıdan həmin şəxslər dərhal həbs olunub, məsuliyyətə cəlb ediliblər. Təcrübə göstərirdi ki, belə əməllərə qarşı kompleks tədbirlər görülməsi üçün yeni qanunvericiliyə ehtiyac var. Bu ehtiyacdan irəli gələrək də yeni qanun layihəsi hazırlanırdı. Nardaran hadisəsi də belə bir qanunun nə dərəcədə aktual olduğunu göstərdi. Lakin bütün bu qeyd edilənləri bir kənara qoyub, yeni qanunu yalnız Nardaran hadisələri ilə əlaqələndirmək, ən azı gülüş doğurur. Çünki bir həftənin, bir ayın içində qanun yazmaq, onu ortaya qoyub ətrafında müzakirələr aparmaq qeyri-ciddi işdir. İstənilən qanun layihəsi üzərində aylarla iş gedir, ekspertlər cəlb olunur, başqa ölkələrin təcrübəsi öyrənilir, digər qanunlarla ziddiyyət təşkil edib-etməməsi araşdırılır və sair. Qanun layihəsinin hazırlanması uzun prosesdir. Yeni qanun həm də Azərbaycana ona görə lazımdır ki, Nardaranda baş verən hadisələr gələcəkdə ölkəmizdə bir daha baş verməsin, olacağı təqdirdə isə müvafiq qurumlar səlahiyyətləri, hüquqları çərçivəsində dövlətin maraqlarını vaxtında və doğru şəkildə müdafiə edə, qoruya bilsinlər. Bu qanun eyni zamanda bəzi insanlara ekstremist hərəkətlərə yol verəcəkləri təqdirdə öz məsuliyyətlərini, cavabdehliklərini dərk etməsi üçün də lazımdır.

**- Sözsüz ki, yeni qanunda sadalanan bəndlər, nəzərdə tutulan qadağalar yalnız İslam dini etiqadlı kəsimə deyil, Azərbaycanda fəaliyyət göstərən bütün dinlərin nümayəndələrinə də eyni dərəcədə şamil olunur...**

- Elədir ki, var. Qanunda heç bir dini ayrı-seçkilik nəzərdə tutulmayıb. Milliyyətindən və dinindən asılı olmayaraq, istənilən kəs ekstremizmlə məşğul olacaqsa, qanun qarşısında məsuliyyət daşıyacaq. Dini zəmində hər hansı ekstremizm hadisəsi törədiləcəksə, bu hadisəni törədənlər cinayətkar hesab olunacaq, qanun və cəmiyyət qarşısında cavab verəcəklər. Dövlətin müvafiq qurumları bu qanundan irəli gələrək ekstremizmə qarşı lazımi tədbirləri həyata keçirəcəklər.

**- Yeni qanun layihəsi ilə bərabər, parlamentdə "Dini etiqad azadlığı haqqında" qanuna da dəyişikliklər qəbul edildi. Bu sənəddəki dəyişikliyin mahiyyəti nədən ibarətdir?**

- "Dini etiqad azadlığı haqqında" qanuna edilən dəyişikliyə görə, İslam dininə aid ayin və mərasimlərin aparılması bundan sonra yalnız Azərbaycan vətəndaşları tərəfindən həyata keçiriləcək. Xaricdə dini təhsil almış Azərbaycan vətəndaşları isə İslam dininə aid ayin və mərasimləri apara bilməyəcəklər. Bu dəyişikliyi zəruri edən səbəb xarici ölkələrdə dini təhsil alan, orada yaşayan bəzi gənclərin təhsillə yanaşı, o ölkənin dinə olan münasibətini, dini mədəniyyətini, orada formalaşmış dini cərəyanları da öz təfəkküründə birləşdirməsi, bir sıra hallarda isə təsir altına düşərək Azərbaycana qayıtması ilə bağlıdır. Belə təfəkkürlə ölkəyə qayıdan bəzi şəxslər getdiyi xarici ölkədə müşahidə etdiklərini burada da təbliğ edirlər. O da sirr deyil ki, bəzi xarici ölkələr din təhsili pərdəsi altında öz dövlət maraqlarını, siyasətini, təriqətlərini, bu istiqamətdə məqsəd və vəzifələrini də gənclərə aşılayırlar. Bir növ özləri üçün xüsusi adamlar hazırlayırlar. Bu təcrübə də var. Belə xarici ölkələrdə dini təhsil alanlar hər hansı dini cərəyanın təsiri altına düşməsələr də, həmin ölkələrin din mədəniyyətini Azərbaycana daşıyıb gətirirlər. Bu zaman ölkə daxilində qarışıqlıq yaranır. Çünki hər bir ölkənin əsrlərlə formalaşmış din, ayin, mərasim mədəniyyəti var. Azərbaycanın da bu istiqamətdə öz siyasəti, din mədəniyyəti, adət-ənənəsi olmalıdır. Ona görə də qanuna dəyişiklik edildi və ölkədəki dini mərasimləri xaricdə dini təhsil almış adamların aparmasına qadağalar tətbiq edildi. Qanuna edilən digər dəyişikliyə görə, ibadətgahlardan kənarda, ictimai yerlərdə dini şüarların və digər dini atributların nümayiş etdirilməsi qadağan edilib. Qanunun tələbinə görə, dini bayraqlar yalnız ibadətgahların, dini mərkəz və idarələrin qapalı yerlərində yerləşdirilə bilər. Hesab edirəm ki, bu düzəliş də olduqca vacibdir. Ümumiyyətlə, açıq yerlərdən dini bayraqlar yığışdırılmalıdır. Yalnız ibadətgahların daxilində, hər hansı tədbir keçirilən zaman belə bayraqlar asıla bilər. Azərbaycanın hər tərəfində yalnız dövlətin bayrağı dalğalanmalıdır. Çünki bu, dövlətin əsas rəmzlərindən biridir. Digər tərəfdən, bütün İslam ölkələrində dini bayraqlar deyil, yalnız öz dövlət bayraqları dalğalandırılır. Belə olan halda nə üçün Azərbaycanda qara, yaxud yaşıl bayraqlar dalğalandırılmalıdır? Azərbaycanın dövlət bayrağında İslamın rəmzini əks etdirən yaşıl rəng var. Bu da kifayət edir. İslamın özündə də konkret bir rəngdə, bir rəmzdə qəbul edilmiş bayraq yoxdur. Hər təriqətin, məzhəbin daşıyıcısı özündən bir bayraq düzlətsə, bu, ayrı-seçkiliyə, özbaşınalığa, hətta qarşıdurma və barışmazlığa da gətirib çıxara bilər. Nardaranda bir müddət əvvələ kimi dalğalandırılan dini bayraqları vaxtilə ərəblər döyüşə gedəndə qaldırıblar. Məgər Nardaran camaatı kiminləsə döyüşə gedirdimi? Nə ehtiyac var idi buna? İslam dininə etiqad göstərən, ibadətlə məşğul olan adama bayraq lazımdırmı? Səmimi mömin, ibadət edən adam üçün İslamın müqəddəs kitabı Qurani-Kərim, ibadət evi kimi məscid lazımdır. Bu baxımdan isə bizdə hər hansı çatışmazlıq, problem yoxdur.

**- Bəs, indiyə qədər xaricdə dini təhsil almış şəxslər bu qanunun tətbiqindən sonra nə edəcəklər?**

- "Dini etiqad azadlığı haqqında" qanuna dəyişikliyin edilməsi heç də o demək deyil ki, xaricdə dini təhsil almış insanlar ümumiyyətlə cəmiyyətdən təcrid olunacaqlar. Onlar öz fəaliyyətlərini dini mərkəzlərdə davam etdirə, elmi-dini araşdırmalar, fəlsəfi tədqiqatlar apara bilərlər. Bu qadağalardan digər vətəndaşlar da nəticə çıxarmalıdırlar. Yəni, hansısa vətəndaş din xadimi olmaq, dini mərasimləri aparmaq istəyirsə, mütləq ölkə daxilindəki dini təhsil müəssisələrində təhsil almalıdırlar.

**- Müasir tələblərə cavab verən, vətəndaşlarda geniş elmi-dini təsəvvür formalaşdıran belə dini təhsil müəssisəsi varmı Azərbaycanda?**

- Azərbaycanda təhsil almaq üçün, o cümlədən dini təhsil almaq üçün bütün imkanlar var. Əvvəla Bakı Dövlət universitetində ilahiyyat fakültəsi var. Akademik Vasim Məmmədəliyevin rəhbərliyi ilə orada gənclər ali dini təhsil, alimlərimizdən müxtəlif bilgilər ala bilirlər. Əlavə olaraq mədrəsə də fəaliyyət göstərməkdədir. Bundan əlavə, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində qeydiyyatdan keçən, Təhsil Nazirliyinin lisenziyası əsasında Qafqaz Müsəlmanları İdarəsinin nəzdində fəaliyyət göstərən Bakı İslam Universiteti də var. Burada gənclərimiz, eləcə də digər vətəndaşlarımız bakalavr səviyyəsində dinşünaslıq ixtisası, magistratura səviyyəsində isə Dinlərin tarixi və İslamşünaslıq ixtisaslaşmaları üzrə təhsil ala bilirlər. Gələcəkdə isə bu ali təhsil ocağının bazasında, yaxud da ayrıca olaraq daha geniş imkanlara malik İslam Universitetinin açılması niyyəti də ortadadır. Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycanda dini təhsil vermək üçün müəssisələr yetərincədir.

**Rufik İSMAYILOV**